# XATİRƏ KİTABI – XÜSUSİ BURAXILIŞ






Azərbaycan Respublikası Xatirə Kitabı Ümummilli lider Heydər Əliyevin 1997-ci ildə birbaşa tövsiyəsi və sərəncamı ilə Böyük Vətən müharibəsi, məhəlli münaqişələr və Dağlıq Qarabağ savaşı zamanı Vətən uğrunda canından keçən və itkin düşən soydaşlarımızın şanlı xatirəsini əbədiləşdirmək məqsədilə yaradılmışdır.

Ötən müddətdə İkinci Dünya müharibəsində həlak olmuş azərbaycanlılar, 20 Yanvar və Xocalı faciəsində, Qarabağ müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə həlak olmuş, itkin düşmüş, əsir götürülmüş vətəndaşlarımız, Milli qəhrəmanlarımız haqqında çoxcildlik ensiklopediya hazırlanıb. Kitabın 16 cildi artıq hazırdır, 17-ci cild üzərində iş gedir.

2017-ci ildə Respublika Xatirə Kitabı daha bir məsuliyyətli araşdırmaya başlamışdır. Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Xidməti, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası və Dövlət Komissiyasının İşçi Qrupu ilə birgə aparılan araşdırmanın məqsədi əzəli və əbədi torpaqlarımız olan Dağlıq Qarabağ və ətraf rayonlara Ermənistan Respublikasının xain hücumu zamanı əsir və girov götürülmüş, eyni zamanda, naməlum şəraitdə itkin düşmüş hərbçi və mülki şəxslərin sonrakı talelərinin araşdırılmasıdır. Kifayət qədər çətin və mənəvi yük daşıyan bu araşdırmalar zamanı erməni terrorçu-quldur dəstələri tərəfindən əsir və girov götürülmüş, eyni zamanda, naməlum şəraitdə itkin düşmüş 3888 nəfər Azərbaycan Respublikası vətəndaşı barədə toplanmış məlumatlar yenidən analiz edilmiş və Respublika Xatirə Kitabının 4 cilddə nəşri nəzərdə tutulan xüsusi buraxılışının 1-ci cildində ilkin olaraq 922 nəfərin taleyi barədə məlumatlar nəşr olunmuş və ingilis dilinə tərcümə ilə də verilmişdir.



Nəşr Mədəniyyət Nazirliyi, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının birgə layihəsi kimi nəzərdə tutulub və M.F.Axundov adına kitabxanada təqdimatı keçirilib. Təqdimatda Mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi Qrupu rəhbərinin müavini Eldar Səmədov, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdir müavini Ərəstun Mehdiyev, Mətbuat Şurasının sədri Əflatun Amaşov, Prezident yanında Dövlət İdarəçilik Akademiyası Tarix kafedrasının müdiri Firdovsiyyə Əhmədova, Əməkdar elm xadimi Qəzənfər Paşayev və digərləri kitabın əhəmiyyətini vurğulamışlar.

Bütün çıxışçılar və kitabın baş redaktoru Nəzakət Məmmədova Xatirə Kitabının nəşrinə göstərdiyi böyük diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə dərin minnətdarlıqlarını bildiriblər. ❖











Zöhrə Əliyeva